# Yağışın unutmadığı gün...

*(hekayə)*



Şəmsiyyə Kərimova

Yağış astaca ətrafdakı Çinar ağacının yarpaqlarını döyəcləyirdi. Evdə pəncərənin önündə dayanıb nədənsə pərişan halda damlaların ritminə qulaq asırdım, içimi qəribə bir ağırlıq bürüyürdü. Elə bil göy üzü mənim yerimə ah çəkirdi. Bu hava məni illər öncəyə - gəncliyimin ən saf, ən ağrılı günlərinə aparırdı.

I

O gün də belə yağış yağırdı. Narın, sanki utana-utana... Səni görməyə tələsdiyim üçün küçələri yararaq gedirdim. Ayaqqabılarım islanmışdı, saçlarım suda ağırlaşıb çiyinlərimə yapışmışdı. Amma xoşbəxt idim. Çünki sən var idin. Çünki sənə sarı gəlirdim.

Görüş yerinə çatanda səni köhnə çinar ağacının altında gördüm. Əynində nazik gödəkçə vardı, yağış çiyinlərinə damırdı, amma sən yenə də təbəssüm edirdin. Mən yaxınlaşanda sanki gözlərin işıqlandı:

- İslanmısan, - dedin narahatlıq qarışıq gülüşlə.

- Sənə tələsirdim deyə, - dedim.

Sən başını yana əyib bir anlıq susdun. Sonra:

- Hər dəfə gələndə belə deyirsən, - deyib güldün. - Sanki mən səni çağırıram.

- Çağırmırsan? - dedim zarafatla.

- Yox... çağırıram, - deyə pıçıltı ilə etiraf etdin.

Səninlə yanaşı gedəndə yağışın səsi belə xoş gəlirdi. Hər addımın içimdə iz buraxırdı, amma o vaxt bunun bir gün niskil qoxulu yara olacağını bilmirdim.

II

Zaman keçdikcə görüşlərimiz yağış kimi artdı, bəzən zəif, bəzən güclü... Sən mənim gəncliyim idin; mənim ilk sığınacağım, ilk titrək sevincim. Səninlə danışanda dünya daha yumşaq görünürdü.

Bir dəfə elə həmin çinarın altında demişdin:

- Bilirsən, yağışın səsini sevirəm. Adam gizlənməyə çalışsa da, yağış hər şeyi üzə çıxarır.

- Nəyi?

- Hissi. Dərdi. Sevinci. Çünki insan yağışda özünü gizlədə bilmir.



Onda anlamamışdım. Amma illər sonra o sözlərin mənə ağır-ağır qayıdacaqdı...

III

Son görüşümüz də yağışlı günə təsadüf etdi. Amma bu dəfə səsin əvvəlki kimi deyil, yorğun və titrək idi.

- Gəl danışaq, - dedin.

Səninlə yan-yana addımladım, amma ürəyimdəki narahatlıq yağışdan ağır idi.

Çinarın altında dayananda gözlərimdən qaçırdın. Mən artıq nəyinsə qırıldığını hiss edirdim.

- Hər şey yaxşı olacaq, elə deyil? - dedim.

Cavab vermədin. Yağış güclənirdi, sanki bizim susqunluğumuzu ört-basdır etmək istəyirdi.

Nəhayət, dilləndin:

- Bəzən sevsən də... ayrılmalı olursan, - dedin. - Həyat bizi başqa tərəfə aparır.

Mən heç nə deyə bilmədim. Sözlər boğazımda düyünləndi. Sən isə asta-asta əlimi tutub:

- Səndən heç vaxt inciməmişəm, - deyə pıçıldadın. - Sadəcə, yolumuz burda bitdi.

Əlimi buraxanda elə bil içimdə bir boşluq açıldı. Sonuncu dəfə gülümsəyib getdin. Mən arxanca baxdım - yağış səni boz dumanın içində udurdu. Mənə elə gəlirdi ki, elə bil heç vaxt olmamısan.

IV

İllər keçdi. Mən öyrəşdim, ya da elə bildim. Bəzən həyat insanı yavaş-yavaş dəyişir... səssiz, izsiz. Amma bu gün - illər sonra gözlənilmədən xəbər gəldi. Sənin artıq həyatda olmadığını dedilər.

Dünyanın səsi kəsildi. Yağış başladı.

Pəncərədən baxdım və sanki o çinarın altındakı gənc halını gördüm. Təbəssümünü... gülüşünü... o gün mənə uzatdığın son toxunuşu...

Səni son dəfə itirmədim, bilirsənmi? Səni hər yağış günü yenidən tapıram.

V

İndi də damlaların səsi səmanı doldurur. Mən gözlərimi yumub səni xatırlayıram. Bir az kədər, bir az sevgi, bir az da minnətdarlıq ilə.

Çünki bəlkə də sevgi əbədi olmur, amma xatirələr... yağış kimi... nə qədər yuyulsa da, izini saxlayır.

Sən daha yoxsan, amma yağış hələ də yağır.

Və mən hər dəfə yağışda səninlə yenidən görüşürəm...

10.12.2025